# 40 AYƏ

# BİR DÜNYA HİKMƏT

(40-mövzuda 40 ayə)

Toplayan: Elçin Daşdanov

بِسْمِ اللَّهِ الرَّحْمَٰنِ الرَّحِيمِ

# وَرَتِّلِ الْقُرْآنَ تَرْتِيلًا

Quranı asta-asta (təfəkkür edərək) oxu!

## Allahın dəvəti ayəsi

وَإِذَا سَأَلَكَ عِبَادِي عَنِّي فَإِنِّي قَرِيبٌ ۖ أُجِيبُ دَعْوَةَ الدَّاعِ إِذَا دَعَانِ ۖ فَلْيَسْتَجِيبُوا لِي
وَلْيُؤْمِنُوا بِي لَعَلَّهُمْ يَرْشُدُونَ

"Və iza səələkə ibədi anni fəinni qarib. Ucibu davətəd-da`i iza də`ani fəlyəstəcibu li vəlyuminu bi ləalləhum yərşidun".

***"Mənim bəndələrim səndən Mənim barəmdə soruşanda (de ki,) Mən həqiqətən, (hamıya) yaxınam, Məni çağıran zaman dua edənin duasını qəbul edirəm. Odur ki, Mənim dəvətimi qəbul etsinlər və Mənə iman gətirsinlər ki, bəlkə yolu tapdılar". (Bəqərə surəsinin 186-cı ayəsi)***

## Rəsulallahın (s) əxlaqının yüksəkliyi ayəsi

وَإِنَّكَ لَعَلَىٰ خُلُقٍ عَظِيمٍ

“Və innəkə lə`əla xulqin azim”.

***“(Ya Məhəmməd) Həqiqətən, sən (bütün insani əxlaq fəzilətlərinin cəm olduğu) böyük bir əxlaqa maliksən”. (Qələm surəsinin 4-cü ayəsi)***

## Əhli-Beyt (ə) ayəsi

إِنَّمَا يُرِيدُ اللَّهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ أَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيرًا

“...İnnamā Yurīdullahu Liyuzhibə Ankumur-Ricsə 'Əhləl-Bəyti va Yuţahhirakum Təţhirā”.

***“...Həqiqətən, Allah (xüsusi yaradılış iradəsi ilə) siz (Peyğəmbərin) Əhli-Beyt(in)dən (əqidə, əxlaq və əməllərdə) hər cür (növ) pisliyi təmizləmək və sizi –paklığın bütün cəhətlərində – pak etmək istəyir”. (Əhzab surəsinin 33-cü ayəsi)***

## Salavat ayəsi

إِنَّ اللَّهَ وَمَلَائِكَتَهُ يُصَلُّونَ عَلَى النَّبِيِّ ۚ يَا أَيُّهَا الَّذِينَ آمَنُوا صَلُّوا عَلَيْهِ وَسَلِّمُوا تَسْلِيمًا

“İnnallahə va Mələikətəhu Yusallūnə Alən-Nabīyyi Yā'əyyuhəl-Ləz̲īnə əmənū sallu `Aləyhi va səllimu Təslimā”.

***“Həqiqətən, Allah və Onun mələkləri daim Peyğəmbərə salam (salavat) göndərirlər . Ey iman gətirənlər, ona salam (salavat) göndərin və tamamilə (onun əmrinə) təslim olun”. (Əhzab surəsinin 56-cı ayəsi)***

## Əhli-beyti (ə) sevmək ayəsi

...قُلْ لَا أَسْأَلُكُمْ عَلَيْهِ أَجْرًا إِلَّا الْمَوَدَّةَ فِي الْقُرْبَىٰ

“...Qul Lə əs'əlukum `Aləyhi Əcran Illəl-Məvaddətə Fil-Qurbá”

*“...De: Sizdən bunun (ilahi tapşırıqların çatdırılmasının) müqabilində qohumlarım barəsində (qəlb və əməldə olan) məhəbbətdən başqa bir muzd istəmirəm”. (Şura surəsinin 23-cü ayəsi)*

## Qurani-Kərimin Allah tərəfindən qorunma ayəsi

إِنَّا نَحْنُ نَزَّلْنَا الذِّكْرَ وَإِنَّا لَهُ لَحَافِظُونَ

“İnnā Nəhnu Nəzzəlnəz-zikra va Innā Ləhu Ləhāfizūn”.

***“Həqiqətən, bu zikri (Quranı) Biz nazil etdik və şübhəsiz, onu (təhrifdən, nəsx olunmadan və müddətinin sona çatmasından) Biz Özümüz qoruyarıq”. (Hicr surəsinin 9-cu ayəsi)***

## Doğru yol duası və ayəsi

رَبَّنَا لَا تُزِغْ قُلُوبَنَا بَعْدَ إِذْ هَدَيْتَنَا وَهَبْ لَنَا مِنْ لَدُنْكَ رَحْمَةً ۚ إِنَّكَ أَنْتَ الْوَهَّابُ

"Rəbbənā Lā Tuziğ Qulūbənā Ba`da 'Iz Hədəytənā va Hab Lənā MinLədunkə Raĥmətən 'İnnəkə əntəl-Vəhhāb"

***"Ey Rəbbimiz, bizi doğru yola yönəltdikdən sonra qəlblərimizi azdırma və bizə Öz tərəfindən bir rəhmət bəxş et, çünki, çox-çox bağışlayan Sənsən"! (Ali-İmran surəsinin 8-ci ayəsi)***

## İçki və qumarın haram olma ayəsi

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنَّمَا الْخَمْرُ وَالْمَيْسِرُ وَالْأَنْصَابُ وَالْأَزْلَامُ رِجْسٌ مِنْ عَمَلِ الشَّيْطَانِ فَاجْتَنِبُوهُ لَعَلَّكُمْ تُفْلِحُونَ

“Yā əyyuhəl-ləzinə əmənū 'Innəməl-xamru val-Məysiru val-ənsābu vəl-əzlāmu Ricsun Min `Aməliş-şəyţāni Fāctənibūhu La`əllakum Tuflihūn”.

***“Ey iman gətirənlər, həqiqətən, şərab, qumar və asılmış bütlər(ə ibadət etmək, onlar üçün qurban kəsmək və həmin qurbanın ətindən yemək) və qumardakı püşk oxları nəcis və murdardır və Şeytanın ixtiralarındandır. Buna görə də onlardan çəkinin, bəlkə nicat tapasınız”. (Maidə surəsinin 90-cı ayəsi)***

## Yaxşılıq və pislik ayəsi

مَنْ جَاءَ بِالْحَسَنَةِ فَلَهُ عَشْرُ أَمْثَالِهَا ۖ وَمَنْ جَاءَ بِالسَّيِّئَةِ فَلَا يُجْزَىٰ إِلَّا مِثْلَهَا وَهُمْ لَا يُظْلَمُونَ

“Mən ca'ə Bil-həsənəti Fəlahu Aşru əmsālihā va Mən ca'ə Bis-səyyi'əti Fəlā Yuczá 'Illā Misləhā va Hum Lā Yuzləmūn”.

***“Kim yaxşı bir iş görsə, həmin şəxs üçün onun on qat savabı vardır (əməlin özü üçün ilkin dəyər kimi Allah tərəfindən müəyyənləşdirilmiş mükafat ən azı on qat artıqdır. Onun daha artıq ola biləcək qiyməti isə hüdudsuzdur). Və kim pis bir iş görsə, yalnız onunla cəzalandırılacaqdır. Onlara zülm olunmayacaqdır (onların nə savabları azaldılacaq və nə də cəzaları artırılacaqdır)”. (Ənam surəsinin 160-cı ayəsi)***

## Ölçü ayəsi

وَيْلٌ لِلْمُطَفِّفِينَ الَّذِينَ إِذَا اكْتَالُوا عَلَى النَّاسِ يَسْتَوْفُونَ

“Vaylun Lilmuţaffifīn. Əlləziīnə İzāktālū `Alən-Nāsi Yəstəvfūn”

***“Vay halına əskik satanların! O kəslər ki, özləri insanlardan ölçü ilə bir şey aldıqda, onu tam ölçüb alarlar”. (Mutəffifin surəsinin 1-2-ci ayələri)***

## Allah-Taalanın sevdiyi bəndələr ayəsi

إِنَّ اللَّهَ يُحِبُّ التَّوَّابِينَ وَيُحِبُّ الْمُتَطَهِّرِينَ

"İnnəllahə Yuĥibbut-Təvvābīnə va Yuĥibbul-Mutəţahhirīn".

***"Həqiqətən, Allah çox və tez tövbə edənləri, həmçinin pak olmağa çalışanları sevir". (Bəqərə surəsinin 222-ci ayəsi)***

## Şəhid ayəsi

وَلَا تَحْسَبَنَّ الَّذِينَ قُتِلُوا فِي سَبِيلِ اللَّهِ أَمْوَاتًا ۚ بَلْ أَحْيَاءٌ عِنْدَ رَبِّهِمْ يُرْزَقُونَ

“Və Lā Təĥsəbənnəl-ləzīnə Qutilū Fī Səbīlil-ləhi 'əmvātā ۚ Bəl 'əhyā'un `Ində Rabbihim Yurzaqūn”.

***“Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, diridirlər və onlara Rəbbi yanında ruzi verilir”. (Ali-İmran surəsinin 169-cu ayəsi)***

## Şükr və zikr ayəsi

فَاذْكُرُونِي أَذْكُرْكُمْ وَاشْكُرُوا لِي وَلَا تَكْفُرُونِ

“Fəzkurūnī  'əzkurkum vəşkurū Lī və Lā Təkfurūni”.

***“Buna görə də, Məni yada salın ki, Mən də sizi yada salım. Mənə şükr edin və küfr və nemətlərimə nankorluq etməyin”. (Bəqərə, ayə 152)***

## Quran oxuyanda Allaha pənah ayəsi

فَإِذَا قَرَأْتَ الْقُرْآنَ فَاسْتَعِذْ بِاللَّهِ مِنَ الشَّيْطَانِ الرَّجِيمِ

“Fəizā Qara'təl-Qur'ānə Fəstə`iz Billəhi Minəş-şəyţānir-Racīm”.

***“Quran oxuyan zaman, qovulmuş Şeytandan Allaha pənah apar”. (Nəhl, ayə 98)***

## Ayətəl-kursi

اللَّهُ لَا إِلَٰهَ إِلَّا هُوَ الْحَيُّ الْقَيُّومُ ۚ لَا تَأْخُذُهُ سِنَةٌ وَلَا نَوْمٌ ۚ لَهُ مَا فِي السَّمَاوَاتِ وَمَا فِي
الْأَرْضِ ۗ مَنْ ذَا الَّذِي يَشْفَعُ عِنْدَهُ إِلَّا بِإِذْنِهِ ۚ يَعْلَمُ مَا بَيْنَ أَيْدِيهِمْ وَمَا خَلْفَهُمْ ۖ وَلَا
يُحِيطُونَ بِشَيْءٍ مِنْ عِلْمِهِ إِلَّا بِمَا شَاءَ ۚ وَسِعَ كُرْسِيُّهُ السَّمَاوَاتِ وَالْأَرْضَ ۖ وَلَا يَئُودُهُ
حِفْظُهُمَا ۚ وَهُوَ الْعَلِيُّ الْعَظِيمُ

“Allahu lâ ilâhə illâ hüvəl Həyyul Qayyûm. Lâ tə’xuzuhû sinətun və lâ nəvm. Ləhû mâ fis-səmâvâti vəmâ fil ərz. Mənzəlləzî yəşfəu indəhû illâ biiznih. ya’ləmü mâ bəynə əydîhim və mâ xalfəhum vəlâ yuhîtûnə

bişəy'in min ilmihî illâ bimâ şâə vəsia kursiyyuhussəmâvâti vəl ərz. Vəlâ yəûduhu hıfzuhumâ və huvəl Aliyyul Azîm".

*"Tək olan Allahdır ki, Ondan başqa bir məbud yoxdur! (Öz zatı ilə ) diri və (varlıq aləmini) bərqərar saxlayan qadir və əbədidir. Onu əsla nə mürgi tutar, nə də yuxu! (Yaradılış, qorumaq, idarə etmək və yox etmək Onun istəyindən asılı olduğu üçün) göylərdə və yerdə olanların hamısı Ona məxsusdur. İzni olmadan Onun hüzurunda kim vasitəçilik və şəfaət edə bilər?! İnsanların qarşısında olanı da, arxalarında olanı da (dünyanın keçmiş və gələcək hadisələrini) bilir və onlar Onun elmindən Onun istədiyindən başqa heç bir şeyi bilə bilməzlər. Onun (səltənət və rübubiyyət) kürsüsü göyləri və yeri əhatə etmişdir. Onları (göyləri və yeri) qoruyub saxlamaq Onun üçün çətin və yorucu deyildir. O, çox uca və böyükdür." (Bəqərə surəsinin 255-ci ayəsi)*

## Oruc tutmaq ayəsi

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا كُتِبَ عَلَيْكُمُ الصِّيَامُ كَمَا كُتِبَ عَلَى الَّذِينَ مِنْ قَبْلِكُمْ لَعَلَّكُمْ تَتَّقُونَ

“Yā əyyuhəlləzīnə Əmənū Kutibə`Aləykumus-siyāmu Kəmā Kutibə `Aləllazīnə Min Qablikum Lə`alləkum Təttəqūn”.

***“Ey iman gətirənlər, sizdən əvvəlkilərə yazıldığı kimi sizə (də) oruc yazıldı və qərara alındı, (ki,) bəlkə (ruhunuz qüvvətlənsin və nəfsi istəklərdən) çəkinəsiniz”. (Bəqərə surəsinin 183-cü ayəsi)***

## İslam dini ayəsi

إِنَّ الدِّينَ عِنْدَ اللَّهِ الْإِسْلَامُ

“İnnəd-Dīnə `İndəllahil-'İslām”.

***“Şübhəsiz (peyğəmbərlərin gətirdikləri və şəriət şəklində bəşəriyyətə təqdim etdikləri həqiqi) din Allah yanında həmin İslamdır”. (Ali-İmran surəsinin 19-cu ayəsi)***

## Yaradılış məqsədi ayəsi

وَمَا خَلَقْتُ الْجِنَّ وَالْإِنْسَ إِلَّا لِيَعْبُدُونِ

“Va Mā xalaqtul-cinnə val-'Insə 'Illā Liya`budūn”.

***“Cin və insanları yalnız Mənə ibadət etmələri üçün yaratmışam”. (Zariyat surəsinin 56-cı ayəsi)***

## Namaz ayəsi

وَأَقِيمُوا الصَّلَاةَ وَآتُوا الزَّكَاةَ ۚ وَمَا تُقَدِّمُوا لِأَنْفُسِكُمْ مِنْ خَيْرٍ تَجِدُوهُ عِنْدَ اللَّهِ ۗ إِنَّ اللَّهَ بِمَا تَعْمَلُونَ بَصِيرٌ

“Və əqimus-səlatə və ətuz-zəkatə və ma tuqaddimu liənfusikum min xayrin təciduhu indəllah. İnnəllahə bima tə`məlunə bəsir”.

***“Namaz qılın və zəkat verin. Özünüz üçün qabağa nə yaxşı əməl göndərsəniz onu(n hamısını) Allahın yanında tapacaqsınız. Həqiqətən, Allah etdiyiniz (bütün) əməlləri görəndir”. (Bəqərə surəsinin 110-cu ayəsi)***

## Səbr və namaz  ayəsi

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اسْتَعِينُوا بِالصَّبْرِ وَالصَّلَاةِ ۚ إِنَّ اللَّهَ مَعَ الصَّابِرِينَ

"Ya əyyuhəlləzinə əmənus-təinu bissabri vəs-səlati innəllahə maəs-sabirin".

***"Ey iman gətirənlər, səbr və namazdan kömək diləyin ki, həqiqətən, Allah səbr edənlərlədir". (Bəqərə surəsinin 153-cü ayəsi)***

## Allahın hidayəti ayəsi

إِنَّا هَدَيْنَاهُ السَّبِيلَ إِمَّا شَاكِرًا وَإِمَّا كَفُورًا

“İnna hədəynəhus-səbilə imma şakirən və imma kafura”.

***“Həqiqətən, onu (yaradılış və şəriət hidayəti ilə həyatı boyunca) düz yola yönəltdik – istər şükr edən olsun, istərsə də nankor”. (İnsan surəsinin 3-cü ayəsi)***

## Tövbə etmək ayəsi

أَفَلَا يَتُوبُونَ إِلَى اللَّهِ وَيَسْتَغْفِرُونَهُ ۚ وَاللَّهُ غَفُورٌ رَحِيمٌ

"Əfəla yətubunə iləllahi və yəstəğfirunəhu Vəllahu Ğafurur-Rahim".

***"Bəs nə üçün onlar, Allah çox bağışlayan və mehriban olduğu halda, Allaha tərəf qayıtmır və Ondan bağışlanmaq diləmirlər"? (Maidə surəsinin 74-cü ayəsi)***

## Axirət neməti ayəsi

إِنَّ الَّذِينَ آمَنُوا وَعَمِلُوا الصَّالِحَاتِ يَهْدِيهِمْ رَبُّهُمْ بِإِيمَانِهِمْ ۖ تَجْرِي مِنْ تَحْتِهِمُ الْأَنْهَارُ فِي جَنَّاتِ النَّعِيمِ

"İnnəlləzinə əmənu və amilus-salihati yəhdihim Rəbbuhum bi imənihim təcri min təhtihimul-ənharu fi cənnətin-nə`im".

***"Şübhəsiz, iman gətirib yaxşı işlər görən kəsləri Rəbbi imanlarına görə (Öz yanına) hidayət edər, (və axirətdə) nemət dolu bağlarda onların (ağaclarının və saraylarının) altından çaylar axar". (Yunus surəsinin 9-cu ayəsi)***

## Allaha təvəkkul ayəsi

وَتَوَكَّلْ عَلَى اللَّهِ ۚ وَكَفَىٰ بِاللَّهِ وَكِيلًا

“Vətəvəkkəl aləllahi və kəfa billəhi vəkila”.

***“Allaha təvəkkül et və Allah (bəndələrinin işlərində) vəkil olmaqda və işləri düzüb-qoşmaqda kifayət edər”. (Əhzab surəsinin 3-cü ayəsi)***

## Haqqı batildən ayırmaq ayəsi

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا إِنْ تَتَّقُوا اللَّهَ يَجْعَلْ لَكُمْ فُرْقَانًا وَيُكَفِّرْ عَنْكُمْ سَيِّئَاتِكُمْ وَيَغْفِرْ لَكُمْ ۗ
وَاللَّهُ ذُو الْفَضْلِ الْعَظِيمِ

"Ya əyyuhəlləzinə əmənu in təttəqullahə yəc`əl ləkum furqanən və yukəffir ankum səyyiətikum və yəğfir ləkum vəllahu zul-fazlil-azim".

***"Ey iman gətirənlər, əgər Allahdan qorxsanız, O, sizə (haqla batili bir-birindən) ayırd edən bir qüvvə verər, sizin (kiçik) günahlarınızı təmizləyər, və sizi(n böyük günahlarınızı) bağışlayar. Allah böyük lütf və ehsan sahibdir". (Ənfal surəsinin 29-cu ayəsi)***

## Allahdan qorxanlar ayəsi

الَّذِينَ يُنْفِقُونَ فِي السَّرَّاءِ وَالضَّرَّاءِ وَالْكَاظِمِينَ الْغَيْظَ وَالْعَافِينَ عَنِ النَّاسِ ۗ وَاللَّهُ يُحِبُّ الْمُحْسِنِينَ

“Əlləzinə yunfiqunə  fis-sərrai vəz-zərrai vəl-kaziminə ğəyzə vəl-A`finə anin-nasi vəllahu yuhibbul-muhsinin”.

***“(Təqvalılar) həmin o kəslər(dirlər) ki, mallarını rifah və şadlıqda, mallarında və hallarında (maddi və mənəvi) yoxsulluqda xərcləyirlər, qəzəblərini udan və camaat(ın xətaların)dan keçənlərdirlər. Allah yaxşılıq edənləri sevir”. (Ali-İmran surəsinin 134-cü ayəsi)***

## Axirət ayəsi

يَا قَوْمِ إِنَّمَا هَٰذِهِ الْحَيَاةُ الدُّنْيَا مَتَاعٌ وَإِنَّ الْآخِرَةَ هِيَ دَارُ الْقَرَارِ

“Ya qavmi innəma hazihil-həyatud-dunya məta`un və innəl-axirətə hiyə darul-qərar”.

***“Ey mənim qövmüm! Bu dünya həyatı yalnız (məhdud və müvəqqəti) bəhrələnməkdir və həqiqətən, sabitlik və əbədilik evi (təkcə) axirətdir (axirət həyatıdır)”. (Ğafir surəsinin 39-cu ayəsi)***

## Doğru danışmaq ayəsi

يَا أَيُّهَا الَّذِينَ آمَنُوا اتَّقُوا اللَّهَ وَقُولُوا قَوْلًا سَدِيدًا

"Ya əyyuhəlləzinə əmənut-təqullahə və qulu qavlən sədida".

***"Ey iman gətirənlər, Allahdan qorxun, doğru və möhkəm söz danışın"! (Əhzab surəsinin 70-ci ayəsi)***

## Haqdan dönənlər ayəsi

وَأَمَّا الْقَاسِطُونَ فَكَانُوا لِجَهَنَّمَ حَطَبًا

“Və əmməl-qasitunə fəkanu li cəhənnəmə hətəba”.

***“Amma haqdan dönənlər, şübhəsiz, onlar Cəhənnəmin odunu olacaqlar”. (Cinn surəsinin 15-ci ayəsi)***

## Haqqın gəlişi bəzi insanların münasibəti ayəsi

لَقَدْ جِئْنَاكُمْ بِالْحَقِّ وَلَٰكِنَّ أَكْثَرَكُمْ لِلْحَقِّ كَارِهُونَ

“Ləqad ci`nakum bil-həqqi və lakinnə əksərəkum lil-həqqi kərihun”.

***“Biz sizə (siz insanlara dünyada) haqqı (din, kitab və ilahi maarifi) gətirdik, lakin sizin çoxunuzun haqqdan xoşu gəlmirdi”. (Zuxruf surəsinin 78-ci ayəsi)***

## Təkəbbür ayəsi

وَلَا تُصَعِّرْ خَدَّكَ لِلنَّاسِ وَلَا تَمْشِ فِي الْأَرْضِ مَرَحًا ۖ إِنَّ اللَّهَ لَا يُحِبُّ كُلَّ مُخْتَالٍ فَخُورٍ

“Və la tusa`ir  xəddəkə linnasi və la təmşi fil-ərzi mərəhən, innəllahə lə yuhibbu  kullə muxtalin fəxur”.

***“Camaatdan təkəbbürlə üz çevirmə və yer üzündə lovğa-lovğa yerimə ki, Allah heç bir özündən razını və lovğalanıb fəxr edəni sevməz.” (Loğman surəsinin 18-ci ayəsi)***

## Zəkat ayəsi

خُذْ مِنْ أَمْوَالِهِمْ صَدَقَةً تُطَهِّرُهُمْ وَتُزَكِّيهِم بِهَا وَصَلِّ عَلَيْهِمْ ۖ إِنَّ صَلَاتَكَ سَكَنٌ لَّهُمْ ۗ وَاللَّهُ سَمِيعٌ عَلِيمٌ

"Xuz min əmvalihim sadəqətən tutahhiruhum vətuzəkkihim biha və salli aleyhim innə səlatəkə səkənun ləhum vəllahu Səmi`un Alim".

***"(Ey ümmətin işlərinin sahibi,) onların mallarından zəkat al ki, bununla onları(n can və mallarını) təmizləyir və paklaşdırır (və artırır)san. Və onlara dua et və salam göndər ki, həqiqətən, sənin duan və salamın onlar üçün rahatlıq və xatircəmlik amilidir. Allah eşidən və biləndir". (Tövbə surəsinin 103-cü ayəsi)***

## Gözəl bir dua ayəsi

رَبِّ اجْعَلْنِي مُقِيمَ الصَّلَاةِ وَمِنْ ذُرِّيَّتِي ۚ رَبَّنَا وَتَقَبَّلْ دُعَاءِ

“Rabbi ic`alni muqiməs-səlati və min zurriyəti, Rəbbəna və təqabbəl duai”.

***“Ey Rəbbim, məni namaz qılanlardan et, həmçinin övladlarımdan (da namaz qılanlar et)! Ey Rəbbimiz, duamı qəbul et”! (İbrahim surəsinin 40-cı ayəsi).***

## Rahatlaşan qəlb ayəsi

أَلَا بِذِكْرِ اللَّهِ تَطْمَئِنُّ الْقُلُوبُ...

"...Ələ bi zikrilləhi tətməinnul-qulub".

*"...Bilin və agah olunki, qəlblər yalnız Allahı yad etməklə aramlıq (sakitlik) tapar". (Rəd urəsinin 28-ci ayəsi)*

## Hicab ayəsi

يَا أَيُّهَا النَّبِيُّ قُلْ لِأَزْوَاجِكَ وَبَنَاتِكَ وَنِسَاءِ الْمُؤْمِنِينَ يُدْنِينَ عَلَيْهِنَّ مِنْ جَلَابِيبِهِنَّ ۚ
ذَٰلِكَ أَدْنَىٰ أَنْ يُعْرَفْنَ فَلَا يُؤْذَيْنَ ۗ وَكَانَ اللَّهُ غَفُورًا رَحِيمًا

“Ya əyyuhən-nəbiyyu qul li əzvacikə və bənatikə və nisail-mumininə yudninə aleyhinnə min cəlabibihinnə zalikə ədna ən yu`rəfnə fəla yu`zəynə və kanəl-lahu Ğafurər-Rəhima”.

***“Ey Peyğəmbər, öz zövcələrinə, qızlarına və möminlərin zövcələrinə de ki, örpəklərini örtsünlər (onlara bürünsünlər, boyun-boğaz, sinə, qolları və qıçları örtülsün). Bu (iş) onların (hicab və iffətlə) tanınması, (nadürüstlərin onlara) əziyyət verməməsi və incitməməsi üçün daha münasibdir. Allah həmişə bağışlayan və rəhm edəndir”. (Əhzab surəsinin 59-cu ayəsi)***

# Vilayət ayəsi

يَا أَيُّهَا الرَّسُولُ بَلِّغْ مَا أُنْزِلَ إِلَيْكَ مِنْ رَبِّكَ ۖ وَإِنْ لَمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ ۚ وَاللَّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ ۗ إِنَّ اللَّهَ لَا يَهْدِي الْقَوْمَ الْكَافِرِينَ

"Ya Əyyuhər-Rəsulu bəlliğ  ma unzilə iləykə min Rabbikə  və in ləm təf`əl  fəma bəlləğtə risalətəh,  vəllahu yə`simukə minən-nasi innəllahə  la yəhdil-qavməl-kafirin".

***"Ey Peyğəmbər, Rəbbin tərəfindən  sənə nazil olanı çatdır! Əgər (bunu) etməsən, (elə bil ki,) Onun (heç bir) tapşırığını çatdırmamısan. Allah səni insanlardan (onların fitnə və şərindən) qoruyacaq. Şübhəsiz, Allah kafirlərin dəstəsini hidayət etməz". (Maidə surəsinin 67-ci ayəsi)***

## Salam vermək ayəsi

وَإِذَا حُيِّيتُمْ بِتَحِيَّةٍ فَحَيُّوا بِأَحْسَنَ مِنْهَا أَوْ رُدُّوهَا ۗ إِنَّ اللَّهَ كَانَ عَلَىٰ كُلِّ شَيْءٍ حَسِيبًا

"Və iza huyyitum bitəhiyyətin fəhəyyu biəhsənə minha av rudduha innəllahə kanə əla kulli şəyin həsiba".

***"Sizə salam verildikdə siz ondan daha gözəl və yaxud onun kimi bir salam(la cavab) verin. Şübhəsiz, Allah hər şeyin hesabını aparandır". (Nisa surəsinin 86-cı ayəsi)***

## Şeytanın istəyi ayəsi

إِنَّمَا يُرِيدُ الشَّيْطَانُ أَنْ يُوقِعَ بَيْنَكُمُ الْعَدَاوَةَ وَالْبَغْضَاءَ فِي الْخَمْرِ وَالْمَيْسِرِ وَيَصُدَّكُمْ عَنْ ذِكْرِ اللَّهِ وَعَنِ الصَّلَاةِ ۖ فَهَلْ أَنْتُمْ مُنْتَهُونَ

"İnnəma yuriduş-şəytanu ən yuqi`a bəynəkumul-ə`davətə vəl-bəğzaə fil xamri vəl məysiri və yəsuddəkum an zikrilləhi və anis-səlati , fəhəl əntum muntəhun".

*"Həqiqətən, Şeytan şərab və qumarla (sizi onlara aludə edib onların düşkünü etməklə) aranızda düşmənçilik və kin salmaq və sizi Allahın zikrindən və namazdan saxlamaq istəyir. Belə isə əl çəkəcəksinizmi"? (Maidə surəsinin 91-ci ayəsi)*

## Allahın lütfü ayəsi

...وَلَوْلَا فَضْلُ اللَّهِ عَلَيْكُمْ وَرَحْمَتُهُ لَاتَّبَعْتُمُ الشَّيْطَانَ إِلَّا قَلِيلًا

“... Və Ləv la fəzlullahi aleykum va rəhmətuhu lət-təba`tumuş-şəytanə illa qalila”.

***“... Əgər Allah sizə lütf və mərhəmət göstərməsəydi, şübhəsiz ki, az bir qisminizi çıxmaqla hamınız Şeytana tabe olardınız”. (Nisa surəsinin 83-cü ayəsi)***

## Dostluq ayəsi

الْأَخِلَّاءُ يَوْمَئِذٍ بَعْضُهُمْ لِبَعْضٍ عَدُوٌّ إِلَّا الْمُتَّقِينَ

"Əl-əxillau yavməizin bəzuhum libəzin aduvvun illəl-muttəqin".

***"Həmin gün (dostluq amilləri güclənəcək) təqvalılardan başqa (dünya) dostlar(ı) bir-birlərinə düşmən olacaqlar". (Zuxruf surəsinin 67-ci ayəsi)***

# Mündəricat

Allahın dəvəti ayəsi....................................................................................3

Rəsulallahın (s) əxlaqının yüksəkliyi ayəsi........................................................4

Əhli-Beyt (ə) ayəsi ........................................................................................5

Salavat ayəsi ..................................................................................................6

Əhli-beyti (ə) sevmək ayəsi.............................................................................7

Qurani-Kərimin Allah tərəfindən qorunma ayəsi ...............................................8

Doğru yol duası və ayəsi...................................................................................9

İçki və qumarın haram olma ayəsi...................................................................10

Yaxşılıq və pislik ayəsi.....................................................................................11

Ölçü ayəsi ..........................................................................12
Allah-Taalanın sevdiyi bəndələr ayəsi ..........................................13
Şəhid ayəsi .........................................................................14
Şükr və zikr ayəsi.................................................................15
Quran oxuyanda Allaha pənah ayəsi ...................................................16
Ayətəl-kursi.............................................................................17
Oruc tutmaq ayəsi .......................................................................19
İslam dini ayəsi..........................................................................20
Yaradılış məqsədi ayəsi ...............................................................21
Namaz ayəsi...............................................................................22
Səbr və namaz  ayəsi...................................................................23

Allahın hidayəti ayəsi ........................................................................24
Tövbə etmək ayəsi.............................................................................25
Axirət neməti ayəsi............................................................................26
Allaha təvəkkul ayəsi ........................................................................27
Haqqı batildən ayırmaq ayəsi ..........................................................28
Allahdan qorxanlar ayəsi..................................................................29
Axirət ayəsi ........................................................................................30
Doğru danışmaq ayəsi.......................................................................31
Haqdan dönənlər ayəsi .....................................................................32
Haqqın gəlişi bəzi insanların münasibəti ayəsi...............................33
Təkəbbür ayəsi...................................................................................34

Zəkat ayəsi......................................................................................35
Gözəl bir dua ayəsi ..........................................................................36
Rahatlaşan qəlb ayəsi ......................................................................37
Hicab ayəsi.......................................................................................38
Vilayət ayəsi......................................................................................39
Salam vermək ayəsi .........................................................................40
Şeytanın  istəyi ayəsi.........................................................................41
Allahın lütfü ayəsi..............................................................................42
Dostluq ayəsi ....................................................................................43

